İPƏK YOLU, No.3, 2024, səh.61-68
https://doi.org/10.30546/SI.2024.2.3.314

# POSTKONFLİKT ƏRAZİLƏRİN BƏRPASI VƏ İNKİŞAFININ KONSEPTUAL PROBLEMLƏRİ

**Şirin Ramazanova**

Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), Bakı, Azərbaycan
e-mail: ramazanova.shirin@mail.ru

**Xülasə.** Məqalədə postmünaqişə ərazilərinin inkişaf problemləri, bərpası və inkişafına təsir edən amillər nəzərdən keçirilmişdir. Təhlükəsizliyin bərpası, tələb olunan maliyyə resurslarının çoxluğu, resurs azlığı, vaxt amili, dayanıqlı məskunlaşmanın təmin olunması və s. amillər təhlil olunmuşdur.

**Açar sözlər:** Postkonflikt, iqtisadi inkişaf, repatriasiya, ərazilərin bərpası.

**CONCEPTUAL PROBLEMS OF REHABILITATION AND DEVELOPMENT OF POST-CONFLICT AREAS**

**Shirin Ramazanova**
*Azerbaijan State University of Economics (UNEC), Baku, Azerbaijan*

**Abstract.** In the article, development problems of post-conflict areas, factors affecting the restoration and development of their areas are reviewed. Difficulties in the process of restoring security, the amount of financial resources required, the lack of resources, the time factor, ensuring sustainable settlement, etc. factors are analyzed.
**Keywords:** Post-conflict, economic development, repatriation, restoration of territories.

**КОНЦЕПТУАЛЬНЫЕ ПРОБЛЕМЫ ВОССТАНОВЛЕНИЯ И РАЗВИТИЯ ПОСТКОНФЛИКТНЫХ ТЕРРИТОРИЙ**

**Ширин Рамазанова**
*Азербайджанский Государственный Экономический Университет (UNEC), Баку, Азербайджан*

**Резюме.** В статье рассмотрены проблемы развития постконфликтных территорий, факторы, влияющие на восстановление и развитие этих территорий. Сложности процесса восстановления безопасности, объем необходимых финансовых ресурсов, нехватка ресурсов, фактор времени, обеспечение устойчивого урегулирования и другие факторы были проанализированы.
**Ключевые слова:** Постконфликтный период, экономическое развитие, репатриация, восстановление территорий.

## 1. Giriş

Müharibələr ölkələr arasında silahlı münaqişə olmaqla hər zaman itki ilə nəticələnir. Yaşayış məntəqələri, istehsal obyektləri, nəqliyyat və rabitə sistemi, eləcə də kommunikasiya vasitələri darmadağın edilir, insanlar məhv olur, iqtisadiyyat zəifləyir. Müharibədən sonra postkonflikt ərazilərindəki vəziyyət demək olar ki, bir-birinə bənzəyir. Müharibə nəticəsində ərazilər böyük itki və zərərə məruz qalır. Həyat təminatı sistemləri, sosial-mədəni və iqtisadi infrastruktur məhv edilir. İşğaldan azad edilmiş ərazilərdə (İAEƏ) infrastruktur, istehsal müəssisələri, sosial obyekt və mədəni müəssisələr sıfırdan qurulmalı olur. Reabilitasiya prosesini həyata keçirtmək isə böyük maliyyə vəsaiti və resurs tələb edən çətin bir prosesdir.

## 2. Postkonflikt ərazilərin bərpası və inkişafına təsir edən amillər

Postmünaqişə əraziləri miqyasına, dağıntının miqdarına görə nə qədər bir-birindən fərqlənsə də, bu ərazilərin inkişafına təsir edən amillərin bir çoxu oxşardır. Təhlükəsizliyin

bərpa prosesindəki çətinliklər, tələb olunan maliyyə resurslarının çoxluğu, resurs azlığı, vaxt amili, dayanıqlı məskunlaşmanın təmin olunması və s. bu amillərə aiddir.

İAEƏ-də bərpa işlərinə dekontaminasiya prosesi ilə başlanılır. Çünki ən vacib və təxirə-salınmaz məqam əhalinin təhlükəsizliyi və müdafiə sistemini möhkəmlətməkdir. Ərazinin minalardan, partlamış digər hərbi sursatlardan, dağıntılardan təmizlənməsi dekontamisiyanın əsas tərkib hissəsidir. Əhalinin, həmçinin infrastrukturun və istehsal obyektlərinin təhlükəsizliyini qorumaq məqsədi ilə aparılan bu proses bütün işlərdən qabaq başlansa da, ümumiyyətlə bərpa prosesini bütünlüklə əhatə edə bilir. Burada vacib məqam ondan ibarətdir ki, minalardan təmizlənmə hər mərhələdə digər işləri qabaqlasın. Bu proses bir neçə mərhələdə aparılır. Hazırlıq mərhələsi - minatəmizləyən qurumların fəaliyyətə keçməsi üçün zəmin yaranır. İkinci mərhələ - baş fəaliyyət planının hazırlanmasından ibarətdir. Üçüncü mərhələ - minatəmizləmə üzrə əsas işlərin görülməsidir.

Dekontaminasiyanın ikinci bir özəlliyi ekoloji təhlükəsizliyi təmin etməsidir. Burada təbiətə qəsdən vurulmuş ziyan və buna görə də əhalinin məskunlaşmasına təhlükə yaradan hallar kimi ekoloji təhlükələr nəzərdə tutulur. Məsələn, su hövzələrinin zəhərlənməsi buna misal ola bilər. Əhalinin həyatına zərər verən bu cür ekoloji pozuntuları aradan götürmək də reabilitasiyanın bir hissəsidir. Bu prosesi həm də ekoloji reabilitasiya adlandırmaq olar. Əvvəlcədən əhalinin məskunlaşacağı planlaşdırılan ərazilər analiz edilib öyrənməli və həmin ərazilər zərərli maddələrdən təmizlənməlidir. Münbitliyini itirmiş əraziləri müəyyənləşdirmək (bitki örtüyünün kütləvi şəkildə yandırılması, meşələrin qırılması) və reabilitasiyasını həyata keçirtmək lazımdır.

İşğaldan azad edilmiş ərazilərin bərpası və inkişafını reallaşdırmaq üçün aparılan islahatlar kifayət qədər maliyyə resursu tələb edir. Ona görə də ərazilərin bərpa və inkişafı prosesi üçün məsrəflərin minimuma salınması əsas prinsiplərdən biri olmalıdır. Eyni zamanda resurslara qənaət prinsipi bərpa prosesinin siyasi, iqtisadi və mədəni hədəflərinə zidd olmamalıdır. Xərclərin aşağı salınması əhalinin təhlükəsizliyi və quruculuq işlərinin keyfiyyətsizliyi ilə nəticələnəcəksə, məsrəflərin azaldılmasına yol verilməməlidir.

Mərkəzləşdirilmiş xərclərin mənbəyi qismində həm dövlətin qərarı əsasında sərəncam verdiyi vəsait, həm də beynəlxalq donor təşkilatlarından cəlb edilmiş maliyyə resursları, yaxud beynəlxalq maliyyə institutlarının kreditləri çıxış edə bilər.

İşğaldan azad edilmiş ərazilərdə dağıntının miqdarına görə bəzən bərpa, çox vaxt isə yenidənqurma işləri aparmaq lazım gəlir. Bəzən köhnəni bərpa etməkdənsə, yeni tikilən obyektlər iqtisadi cəhətdən gələcəkdəki istismar xərclərinin azaldılması nöqteyi-nəzərindən daha sərfəlidir. "Köhnə obyektləri bərpa etmək imkanı olan hallarda belə, müasir elmtutumlu texnologiyalardan istifadə edərək tikinti-quruculuq işləri aparmaq daha effektiv olur" [4, s.50]. Məsələn, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının infrastrukturunun heç o dövrün tələblərinə cavab vermədiyini nəzərə alsaq, regionun infrastrukturunu mütərəqqi elm-texniki üsullarla müasir formada yenidən qurmaq həm iqtisadi, həm də texniki baxımdan daha uğurlu

ola bilər. Nə qədər qəribə səslənsə də, bu cür hallarda reabilitasiya işləri üçün layihələr hazırlayarkən köhnə sistemlərdən asılı olmadan yenidən planlaşdırma aparıb, yeni layihələri reallaşdırmaq daha asan və az məsrəfli ola bilər.

İşğaldan azad edilmiş ərazilərin bərpasını ərazi planlaşdırılması baxımından iki yolla həyata keçirmək mümkündür. Yaşayış məntəqələrinin konfliktəqədərki şəbəkəsinin bərpası və yaxud yaşayış məntəqələri şəbəkəsinin müəyyən dəyişikliklərlə yenidən planlaşdırılması. İkinci halda məskunlaşma strukturunun həm kəmiyyət, həm də keyfiyyət göstəriciləri nəzərə alınmaqla yenidən planlaşdırılması nəzərdə tutulur. Adətən, birinci varianta daha çox üstünlük verilir. Əlavə planlaşdırma və şəhərsalma işlərinə ehtiyac qalmır. Lakin əvəzində yaşayış məntəqələrinin şəbəkəsinin və strukturunun layihələndirilməsində yeni daha müasir üsul və vasitələrin tətbiq edilməsi ehtimalı azalır. İkinci variantda isə daha planlı və strukturlu formada yaşayış məntəqələrinin strukturunun rəqəmsal üsullarla planlaşdırılmasını həyata keçirmək mümkün olur.

Məskunlaşmanın yeni strukturu konfliktsonrakı bərpa prosesinin prinsiplərini, metodoloji əsaslarını, həyata keçirmə üsul və alətlərini müəyyənləşdirməkdə, məskunlaşmanın strukturunu formalaşdırmaqda əhəmiyyət kəsb edir. Konfliktsonrakı reabilitasiyanı səmərəli şəkildə aparmaq üçün bərpa ediləcək ərazilərin ardıcıllığı düzgün müəyyən olunmalıdır. Konseptual nöqteyi-nəzərdən bu problemi həll etmək üsulu yaşayış ərazilərinə dəymiş zərərin yalnız miqyasından deyil, həm də bərpa prosesinə ayrılmış vaxt və resursların miqdarından (ən əsası dövlətin maliyyə imkanından) asılıdır.

Vaxt və resurs azlığı bütün hallarda postkonflikt dövr üçün qaçılmaz məhdudiyyətlər yaradaraq hüdudları müəyyən edir. İşğaldan azad edilmiş ərazilərin iqtisadi inkişaf səviyyəsini bütövlükdə ölkənin iqtisadiyyatına reinteqrasiya etmək ən vacib məsələlərdən biri olduğuna görə bu əraziləri nəinki digər ərazilərin inkişaf səviyyəsinə çatdırmaq, hətta daha da intensiv inkişaf etməsini təmin etmək lazımdır. Çünki kommunikasiya və rabitə vasitələri qısa zaman kəsiyində çox çevik və radikal dəyişikliklərə uğrayır. Bu dəyişikliklərə uyğunlaşmaq və çevik olmaq üçün dayanıqlı inkişafa nail olmaq lazımdır.

Vaxt amili reabilitasiya prosesi boyunca bütün sahələrə təsir etsə də, ən çox kommunikasiya və rabitə vasitələrinin bərpasında bu təsir daha çox özünü göstərir. Çünki texnologiya sahəsində baş verən dəyişikliklər o qədər sürətlə irəliləyir ki, aparılan bərpa işlərini yaxın gələcəkdə baş verə biləcək dəyişikliklərə uyğun olaraq tənzimləmək lazımdır. Bir növ "texnoloji innovasiyanı qabaqlamaq" lazım gəlir. Tikinti, nəqliyyat sistemi, enerji və qaz təchizatında çox qısa zaman kəsiklərində belə dəyişikliklər baş verir. Artıq dünyada rəqəmsallaşmanın təsiri nəticəsində "Ağıllı şəhərlər", "Ağıllı kəndlər" formalaşır. Hətta Ağıllı şəhərlərin və kəndlərin göstəricilərinə olan tələblər belə il-ildən dəyişir. Bu proses sanki zaman ilə yarışmağa bənzəyir.

Postkonflikt ərazilərdə əhalinin dayanıqlı məskunlaşması reabilitasiya proqramının əsas onurğa sütunudur. Repatriyasiya işğaldan azad edilmiş ərazilərin inkişafında bir növ dayaq

nöqtəsidir. Əgər əhali reabilitasiya prosesində iştirak etməsə, bərpa prosesinin tam gücü ilə davam etməyi qeyri-mümkündür.

Yaşayış məntəqələrinin salınmasından öncə baş planlar işlənib-hazırlanmalı və müvafiq dövlət orqanlarda təsdiq edilməlidir. Postkonflikt dövrdə aparılan bərpa işlərinin özəlliklərindən biri şəhərsalma planları qurularkən əvvəllər buraxılan səhvlərin aradan qaldırılması imkanının olmasıdır. Məsələn, kortəbii tikililərlə bağlı buraxılmış səhvləri əvvəlcədən plan tərtib edərkən nəzərə almaq mümkündür. Lakin şəhərsalma prosesində baş plan hazırlanarkən əhalinin daşınmaz əmlak üzərində olan hüquqları nəzərə alınmalıdır.

Məskunlaşma sisteminə qarşılıqlı əlaqədə olan təbii və antropogen elementlərin bir ərazidə toplanmış məcmusu kimi baxılır. Əhalinin həyat fəaliyyəti üçün elə şərait yaratmaq lazımdır ki, region dayanıqlı inkişaf edərək "özünü təkrar istehsal etsin". Məskunlaşma sistemi konfliktsonrakı reabilitasiya işlərinin bünövrəsində dayanmalıdır. Eyni zamanda yaşayış məntəqələrinin həcmini gələcək dövrlər üçün hesablanan əhalinin demoqrafik artım göstəricilərini nəzərə almaqla planlaşdırmaq lazımdır.

Məskunlaşma strukturunu bərpa edərkən struktur formalaşdırmaq üçün yaşayış məntəqələrinin elə formasını seçmək lazımdır ki, bu regionun canlanmasında hərəkətverici qüvvə rolunu oynasın. Bir sözlə işğaldan azad edilmiş ərazilərin dayanıqlı inkişafına və daxili inteqrasiyasına şərait yaratsın. Bu halda əvvəlki yaşayış məntəqələrinin bərpa olunmasına bir qədər tənqidi yanaşmaq tələb olunur. Əvvəla, postkonflikt ərazilərin yaşayış məntəqələrinin hər birini əvvəlki vəziyyətindəki kimi bərpa etmək hər zaman mümkün olmur (şəhərsalma nöqteyi nəzərdən). İkincisi isə bəzi yaşayış məntəqələrinin böyüdülməsi və bəzi hallarda isə yeni yaşayış məntəqələrini planlaşdırılması lazım gəlir.

Məcburi köçkünlərin yaşayış yerləri ilə təmin olunması sosial-iqtisadi reabilitasiyanın məqsədlərindən biridir. Müvəqqəti yaşayış yerləri ilə təmin etmək həm bərpa briqadalarının işinin çevikliyinə xidmət edir, həm də maliyyə vəsaitinə qənaət edir.

Yaşayış fondunun bərpa məsrəflərinin qiymətləndirilməsi postkonflikt ərazilərin maliyyə təminatı məsələləri sırasında ən mürəkkəbidir. Yaşayış fondunu bərpa edərkən həyat keyfiyyətinin qaldırılması məqsədi ilə daha yüksək standartlar hədəf götürülməlidir.

Bərpa tələb edən ərazilər reabilitasiya proqramında qruplara bölünür:

1. Deqradasiyaya uğramış sistem - bütünlüklə dağıdılmış, əhalinin tam tərk etdiyi ərazilərdir. Bu ərazidə yeni məskunlaşma sistemi qurmaq lazımdır. Minalardan təmizlənərkən nəzərə almaq lazımdır ki, sel və daşqınlar minaları yerindən tərpədib çaylara və digər ərazilərə axıtmışdır.

2. Daxili strukturunu itirmiş məskunlaşma sistemi - rayon mərkəzi rolunu oynayan şəhərlər uzun müddət ərzində işğal altında qaldığına görə rolunu icra edə bilmədiyindən ətrafdakı kiçik məntəqələr funksional ola bilmir. Bu ərazilərdə əsaslı şəkildə yenidənqurma aparmaq lazımdır. Yeni formalı yaşayış məntəqələri formalaşdırmaq lazımdır. Bu sistem özü-özünü bərpa etmək iqtidarında deyil.

3. Nizamı pozulmuş sistem - rayon mərkəzinə nisbətən yaxın məsafədə yerləşən yerli mərkəzlərin dağıdılması. Bu cür sistemin regenerasiya potensialı bir qədər yüksək olur.

4. Müvazinətini itirmiş məskunlaşma sistemi - komponentlərinin fəaliyyəti pozulsa da, bütövlükdə fəaliyyətini qoruyub saxlayır. Bura miqrantların sayı sayəsində, əhalinin yüksək artımı nəticəsində infrastrukturun hədsiz yüklənməsini misal göstərmək olar. Bu əraziyə kumulyasiya zonası aiddir. Bu ərazilərə məcburi köçkünlərin köçdüyü hədsiz dərəcədə yüklənən əraziləri aid etmək olar.

Həlledici məsələlərdən biri əhalinin mülkiyyət üzərində olan haqlarının bərpa olunmasıdır. Buraya torpaq sahələri, istehsal müəssisələri, yaşayış yerləri və özəlləşdirilməsi vacib olan digər ictimai-iqtisadi fəaliyyət obyektləri aiddir. Konfliktsonrası reabilitasiya dövründə bu məsələnin həlli digər bütün məsələlərin həlli üçün də vacibdir. Məcburi köçkünlərin öz yaşayış məntəqələrinə qayıtması, əhalinin qeydiyyatının və iqtisadi fəaliyyətin təşkil edilməsi üçün normativ-hüqiqi aktlar tərtib etmək lazimdır.

Əhalinin repatriyasiyası üçün stimullar toplusu hazırlamaq lazımdır. Bəzi stimullar 2-li xarakter daşıyır və dolayı təsir edir. Məsələn, işgüzar fəallığı artırmaq məqsədi ilə sahibkarlara xüsusi güzəştlərin verilməsi, torpaqların özəlləşdirilməsi, işğaldan azad edilmiş rayonlardakı müəssisələrə güzəşt və üstünlüklərin verilməsi. Birbaşa stimullara da ehtiyac var. Repatriantların daimi yaşayış yerlərinə köçməsini həyata keçirtmək üçün onlara havayı nəqliyyat vasitələrinin təqdim olunması, birbaşa maliyyə vəsaitlərinin verilməsi və s. aiddir.

Azad edilmiş ərazilərdə iqtisaqdiyyatı dirçəltmək dedikdə bu ərazilərdə iqtisadiyyatı sıfırdan qurmaq başa düşülür. Aydındır ki, bu çox çətin və uzun bir prossesdir. İstehsal obyektlərini bərpa etmək və yaxud yenisini tikməklə iqtisadi dirçəliş öz-özündən baş vermir. Məqsəd ondan ibarətdir ki, işğaldan azad edilən ərazilər bir müddət sonra öz-özünü idarə edən bir regiona çevrilsin. "Ona görə çalışmaq lazımdır ki, müəyyən bir dövr keçdikdən sonra post-konflikt rayonlar iqtisadi cəhətdən özü-özünü dolandıran bütöv bir regiona çevrilsin və eyni zamanda ölkənin digər bölgələrinə iqtisadi inteqrasiya telləri ilə üzvi surətdə bağlanmış olsun, dövlətin xarici iqtisadi münasibət və əməliyyatlarında tam hüquqla və tam həcmdə iştirak etsin" [3, s.197].

### 3. Postkonflikt ərazilərdə bərpa prosesi Dünya təcrübəsi və Azərbaycan

Postmünaqişə əraziləri münaqişənin miqyasına, dağıntıların dərəcəsinə, əhatə etdiyi ölkələrin sayına görə fərqlənir. Afrika ölkələri, Yaxın Şərq, Rusiya-Ukrayna, Fələstin-İsrail və bir çox başqa ölkələrdə münaqişələr hal-hazırda hələ də davam edir.

70 mln-dan çox insan ölümü ilə nəticələnən 2-ci dünya müharibəsinin nətcələrinin öyrənilməsi bu gün də aktualdır. "Bu müharibə 4 trln dollar Dünya iqtisadiyyatına zərər vurdu, 10 mindən çox yaşayış məntəqələri məhv edildi" [7]. Avropada kənd təsərrüfatı və sənaye, işçi və avadanlıq çatışmaması səbəbindən uzun müddət iflic vəziyyətində oldu. Həm də məğlub ölkə kimi Almaniya çox çətin vəziyyət qarşısında qalmışdı. Hərbi əməliyyatlar nəticəsində

dağıntılar, iqtisadi qeyri-sabitlik, defisit, psixoloji xarakterli problemlər mövcud idi. Almaniyanın demək olar ki, yarıdan çoxu dağıdılmış, bütün məhsullara defisit yaranmışdı.

Burada olan qeyri-sabitlik 30-cu illərdə tətbiq edilən sərt iqtisadi tənzimləmələrlə də əlaqədar idi. İstehsal planlamasında həddən artıq pul emissiyası sərt qiymət tarifləri, qiymətləri qaldırmağa qadağaların qoyulması, əhalinin tələbatını nəzərə alınmadan edilirdi. İqtisadiyyatda disbalans yaranmışdı və zaman keçdikcə daha da dərinləşirdi. İqtisadiyyatı iqtisadi qanunlar deyil, idealogiya idarə edirdi. Ona görə də müharibə bitəndən sonra təkcə dağıdılmış əraziləri bərpa etmək deyil, eləcə də iqtisadi sistemi yenidən qurmaq lazım idi.

Alman iqtisadçısı və dövlət xadimi, daha sonra Almaniyanın iqtisadiyyat naziri olan Lüdviq Erxard tərəfindən işlənilmiş inkişaf planı dünyada müharibədən sonra iqtisadiyyatın bərpa edilməsi üzrə ən uğurlu layihələrdən hesab edildi. Müharibədən sonra Almaniya çox acınacaqlı vəziyyətdə idi. Ümumilikdə müharibədə məğlub olmuş ölkə kimi burada, həmçinin ruh düşkünlüyü də var idi. Əmək qabiliyyətli əhalinin əməyinin qarşılığı ödənilə bilmirdi. Ölkə ərazisində həmçinin enerji təminatında problem var idi.

Lüdviq Erxard rəqabətli azad bazar iqtisadiyyatının tərəfdarı idi. O hər zaman azad bazar iqtisadiyyatının üstünlüklərini, sosial rolunu vurğulayırdı. "İqtisadiyyat sərt tənzimləmələrlə deyil, azad bazar qaydaları ilə idarə olunmalı və əhalinin müxtəlif tələbatları və istehsalın iqtisadi effektivliyindən asılı olmalıdır" [5]. Həmçinin, sosial cəhətdən az təminatlı təbəqəyə yardım edilməli, iqtisadiyyat sosial yönümlü olmalıdır. Bundan başqa o, sağlam rəqabət mühitinin yaradılmasına çalışırdı.

Postmünaqişə ərazisi kimi Afrika qitəsi ən çox müharibələrin baş verdiyi ərazilərdən biridir. Dünyanın bir çox regionunda stabilliyə nail olunsa da, bu qitə siyasi qeyri-stabilliyi ilə seçilir. Demək olar ki, Afrika ölkələrinin yarısından çoxudunda siyasi qeyri-stabillik var. "BMT təhlükəsizlik şurası vaxtının və resurslarının 75%-ni Afrika ölkələrinin konfliktlərinin həllinə sərf edirlər" [6]. Bu isə dünyanın qalan digər hissəsinə edilən yardımdan dəfələrlə çoxdur. Müharibələrin mənbəyində duran səbəblərdən asılı olmayaraq müharibələr ağır nəticələr törədir. Postmünaqişə ərazilərinin bərpası müharibədən öncəki şərtlər altında deyil, yenidənqurucuduq və bərpa işlərinin daha yaxşı formada aparılması nəzərdə tutulur. Həm də gələcəkdə konfliktlərin təkrarlanmaması üçün lazım olan tədbirlər də görülməlidir.

Azərbaycanın işğaldan azad edilmiş əraziləri 30 il ərzində erməni işğalçıları tərəfindən talan edilərək böyük itki və zərərə məruz qalmışdır. Yaşayış məntəqələri, istehsal obyektləri, nəqliyyat və rabitə sistemi, eləcə də kommunikasiya vasitələri, işğaldan azad edilmiş ərazilərdə infrastruktur demək olar ki, tam dağıdılmışdır. "BMT-nin hesablamalarına görə işğal nəticəsində Azərbaycana dəymiş iqtisadi zərərin həcmi 53.5 milyard ABŞ dolları həcmindədir. İşğal nəticəsində bütün istiqamətlər üzrə Azərbaycana dəymiş zərəri hesablasaq, o zaman dəymiş zərərin daha böyük olduğu görərik" [1].

Hal-hazırda ölkədə iqtisadi cəhətdən yeni bir region yaradılır. Bu, elə bir prosesdir ki, bunun üçün uzun müddət lazımdır. İqtisadi sistem qurmaq üçün vaxt tələb olunur. İqtisadi

cəhətdən güclü region qurmaq üçün və yaxud regionun iqtisadiyyatının inkişafı üçün maddi və maliyyə ehtiyyatları ilə birgə özəl sektorun maliyyə resurslarını, intellektual resursları, "ağıllı" texnologiyaları cəlb etmək lazımdır. Həmçinin, "yüksək və ağıllı texnologiyaların tətbiq olunması əhalinin intelektual səviyyəsinin artmasına və maddi rifahının yüksəldilməsinə yeni imkanlar formalaşdıracaq" [2, s.262]. Könüllü formada bu regionda əhalini cəlb etmək və həvəsləndirmək, əsas da məcburi köçkünlər arasından olan könüllülərə sahibkarlıqla məşğul olmaq istəyənlərə şərait yaratmaq lazımdır.

Bərpa olunacaq ərazilərə hər şeydən öncə gələcəkdə özü-özünü təşkil və idarə edəcək subyekt kimi yanaşmaq lazımdır. Müəyyən müddətdən sonra İAEƏ müstəqil inkişaf potensialına sahib olan bir yer olacağı nəzərə alınmalıdır.

Bir məsələni də nəzərə almaq lazımdır ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında əvvəllər də, indi də mövcud olan yaşayış məntəqələrinin yalnız 20-22%-i şəhər-mərkəz rolunu oynayıb, adətən, daha kiçik şəhərlər olub. Bu regionda mövcud olan şəhərlər mərkəz əmələ gətirə bilən potensialda olmamışdır. Aparılan araşdırmalar belə bir fikrə gəlməyə əsas verir ki, burdakı şəhərlər yaxın gələcəkdə də sistem əmələ gətirmək rolunu oynaya bilməyəcək. Hətta Ağdam və Xankəndi kimi nisbətən iri yaşayış məntəqələri belə, kiçik şəhərlər sayılır. Buna baxmayaraq işğaldan azad edilmiş ərazilərin yaşayış məntəqələri düzgün planlaşdırma əsasında gələcək dövrlərdə rəqəmsallaşmanın yeniliklərin tətbiq edilməsi sayəsində vahid şəhərlər birliyinə çevrilə bilər. Bu şəhərlər qrupu demoqrafik artım baş verərsə, daha da sürətlə böyüyəcəkdir.

**Nəticə.** Postmünaqişə ərazilərin problemlərinin bir çoxu bənzər amillərdən asılı olur. Belə ki, təhlükəsizlik və müdafiə sisteminin təmin edilməsi, tələb olunan maliyyə resurslarının çoxluğu və resurs azlığı, vaxt amili, dayanıqlı məskunlaşmanın təmin olunması və s. problemlər bir çox postkonflikt ərazilərdə rastlanır. Bəzi münaqişələr isə daha geniş əraziləri əhatə etməsinə, dağıntının miqdarına, məğlub və yaxud qalib ərazi olduğuna görə və s. xüsusiyyətlərə görə fərqlənə bilir. İAEƏ-in bərpa və inkişaf problemini həll etməyin yollarından biri əhalinin məşğulluq səviyyəsini yüksəltməklə, dayanıqlı məskunlaşmasını təmin etməklə mümkündür. İşğaldan azad edilmiş ərazilərdə məşğulluq dekontaminasiya işlərinin intensivliyindən, təhlükəsizlikdən, infrastrukturun, təsərrüfat obyektlərinin tikilməsindən asılıdır.

## Ədəbiyyat


1. Bağırov O. (2020), Azad edilmiş ərazilərdə bərpa prosesinin əsas istiqamətləri. Təhlil. https://aircenter.az/uploads/files/orxan%20tehlil%20mart.pdf?fbclid=IwAR0vC980vM4fPLHRgrSz3g5S9O1oavvI-7uIkPNJjtaWHaocTaeYUSK3yfc
2. Quliyev E.A. (2023), Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının Azərbaycanın davamlı inkişafında rolu. Kooperasiya nəşriyyatı.
3. Müzəffərli N., İsmayılov E. (2010), Azərbaycanın post-konflikt ərazilərinin bərpası: Konseptual əsaslar. Bakı, Qafqaz nəşriyyat evi, 270.

4. Половяна А.В. (2019), Актуальные вопросы управления социально-экономическими системами на постконфликтных территориях. Донецкий национальный университет г. Донецк, 232.
5. Родионова Т.Н. (2003), Экономическое положение германии после второй мировой войны и реформа Л. Эрхарда. https://cyberleninka.ru/article/n/ekonomicheskoe-polozhenie-germanii-posle-vtoroy-mirovoy-voyny-i-reforma-l-erharda
6. Kimokoti S.N. (2014), A review of the ıntegrated post-conflict management strategies in Kenya. International Journal of Managerial Studies and Research (IJMSR), Vol.2, No.4, 68-75.
7. http://www.anl.az/down/meqale/xalqqazeti/2019/iyun/660402.htm